**UOT 81'38; 801. 6; 808**
https://doi.org/10.59849/2311-8482.2025.4.27

**LAMİYƏ QARDAŞZADƏ**

# BƏDİİ DİLDƏ ZƏFƏR RİTORİKASI VƏ QƏLƏBƏ RUHUNUN ÜSLUBİ-BƏDİİ İFADƏSİ (NAXÇIVAN ŞAİRLƏRİNİN YARADICILIĞI ƏSASINDA)

*Məqalədə Naxçıvan ədəbi mühiti materialları əsasında bədii əsərlərdəki zəfər poetikası araşdırılmışdır. Göstərilmişdir ki, 2020-ci ildə əldə olunan Böyük Zəfər Azərbaycan xalqına dərin sevinc və fərəh duyğuları bəxş etmişdir. Qeyd edilmişdir ki, 2020-ci ilin noyabrında qələbə əldə edən Azərbaycan Respublikasında ədəbiyyat adamları bu zəfər duyğularını ən rəngarəng, zəngin poetik üsul və çalarla bədii əsərlərin dilinə gətirmişlər. Zəfər təkcə ictimai-siyasi və hərbi hadisə olaraq qalmamış, dildə də özünün təzahürünü tapmışdır. Zəfər mövzusunun bədii dil səviyyəsində nümunələrdə əks edilməsi məsələsi araşdırılmışdır. Xüsusilə böpyük coşqu hissilə bu böyük hadisəni ədəbiyyata gətirən ədiblər bədii əsərlər nümunələrində, xüsusilə poeziyada zəfərə dair özünəməxsus poetik xüsusiyyətlər və örnəklər ortaya qoymuşlar. Naxçıvan ədiblərinin yaradıcılığında da başlıca mövzuya çevrilən Zəfər özünəməxsus dil və üslub formaları ilə təzahür edərək ana dilinin zənginləməsinə, bədii dil texnikasının mükəmməlləşməsinə xidmət etmişdir. Böyük Zəfər sayəsində Azərbaycan dilində fəallöını itirmiş "qələbə, zəfər" kimi sözlərin fəallaşması ilə eyni zamanda işğal edilmiş Azərbaycan ərazilərinin qurtulması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi istiqamətində yeni söz, ifadə və modellər də meydana gələrək işləklik qazanmışdır. Prezident İlham Əliyevin müharibə və Zəfər dövründəki nitqindəki ritorikaya uyğun olaraq bədii nümunələrdə də ritorika hökm sürmüş, Prezidentin istifadə etdiyi üslubi ifadə örnəkləri həm təkrar edilməklə, həm də onun yeni formaları yaradılmaqla qələbə ruhu bədii ədəbiyyatda öz əksini tapmışdır.*

***Açar söz:*** *Zəfər, zəfər ritorikası, bədii təcəssüm, üslubi forma.*

## Giriş

Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələrindən olan bədii dildə üslubi fiqurlar və məcazların yaranma və istifadə üsullarının öyrənilməsi məsələsi tədqiqatın aktuallığını müəyyənləşdirən amillərdən biridir. Ədəbi dil müəyyən tarixi mərhələlərdə, xüusilə ictimai-siyasi cəhətdən əhəmiyyətli mərhələlərdə inkişaf və dəyişikliyin məzmunua uyğun olaraq söz və ifadələrlə zənginləşmə dövrü keçirir ki, məhz bu cür mühüm bir hadisə olan Azərbaycanın 44 günlük müharibədə qazandığı Böyük Qələbədən sonra baş verən müxtəlifyönlü dəyişikliklər kontekstində Azərbaycan ədəbi dili zənginləşmək prosesi ilə üzbəüz qalmışdır. Məqalədə məhz bu mühüm hadisədən sonra Azərbaycan dilində passivləşmiş söz və ifadələrin işləklik qazanması, yeni söz və ifadələrin yaranaraq ədəbi dili zənginləşdirmək hadisəsi təhlil edilir ki, bu da tədqiqatın aktuallığında dayanan mühüm məsələlərdən biridir. Tədqiqat işini həyata keçirmək üçün analiz və sintez, müqayisəli təhlil, sinxron təhlil, statistik təhlil və başqa kimi metod və üsullardan istifadı edilmişdir.

## *Böyük Qələbə və Azərbaycan ədəbi dili*

Məlum olduğu kimi, hər bir insani, bəşəri duyğu və ya hissin ifadəsi üçün bədii dil özünəməxsus dil faktları və vahidlərindən istifadə edir. Ölkəmizin uzunmüddətli faciəvi və kədərli torpaq itkilərinin ardınca 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən sərkərdəliyi və peşəkar, hər bir əmri vaxtında müvəffəqiyyətlə yerinə yetirən qalib Ordunun sayəsində böyük zəfər qazanıldı. ədəbiyyat bu böyük sevinci dərhal ədəbi fakta çevirərək tərənnüm etməyə başladı. Bunun üçün poeziya daha çevik münasibət ifadə edərək ana dilimizin zəngin imkanlarından yararlanmaqla bütün poetik əlvanlığı və rəngarəngliyi ilə qələbə sevinci və iftixarını ifadə etməyə nail oldu. Prezident İlham Əliyevin çıxış və nitqlərindəki qələbə ritorikasını, qazanılmış şanlı zəfərin dəruni ümumxalq iftixarını ifadə üçün bədii dil poetik və patetik ifadə imkanları müsəlləh əsgərə çevrildi. Xüsusilə, bədii təkrir və xitablar qələbə ritorikasınının ifadəsində daha fəal mövqe nümayiş etdirdi. Mahirə Nağıqızının "Azərbaycanım", "Salam olsun", "Xoş görmüşük", "Al bayrağım", "Şəhid nəğməsi", habelə Alməmməd Eldaroğlunun Ali Baş Komandan İlham Əliyevə həsr etdiyi "Baş Komandan, Milli Ordu", o cümlədən "Azərbaycan", "Torpağına qurban Vətən", "Vətən Azərbaycandır", "Könlümün yurdu vətən" və başqa şeirlərində "xitab və

bədii təkrirlərdən uğurla istifadə edilərək qələbə və qalibiyyətin əzəmətli obrazı yaradılmış və ya təsvir edilmişdir" [12]. Hətta bəzi əsərlər vardır ki, məhz bədii xitab üzərində qurulmuşdur. M.Nağıqızının "Şəhid nəğməsi" kimi şeirlərində poetik struktur bədii xitab əsasında qurularaq əsərə kədər və zəfər təntənəsi bəxş etmişdir. Bu kimi nümunələr qələbə ruhunda çoxsaylı əsərlər yazan Asim Yadigar, Ramiz Babayev, Təranə Arifqızı, Qafar Qərib və başqa müəlliflərin yaradıcılığında da yer almışdır. Şair Asim Yadigarın "Zəfər yolu" poeması, Ramiz Babayevin "Mənim Qalib Komandanım", "Ey Vətən, Qələbə Günün mübarək!", "Xoş gəldin, Şuşam!", "Ağ atlı oğlan", "Haydı, irəli, qardaş, "Şəhid anası" və başqa əsərləri qələbə ruhunun təntənəli ifadəsi baxımdan üslubi imkanların geniş istifadə edildiyi əsərlər kimi diqqəti cəlb edir.

Bədii dil ana dilini bütün imkanlar baxımından inkişaf etdirən ən fəal bir sistemdir. Yaçıçı təfəkkürünün məhsulu olan məxsusi ifadə və dil örnəkləri ana dilinin zənginləşməsi üçün geniş imkanlar açmaqla bərabər onun dövrə uyğun fəal və çevik inkişafını təmin edir, eləcə də üslubi aktivliyi və semantik-struktur inkişafına yön verir. Məhz buna görə də bədii dil – yazıçı dili ədəbi dilin inkişaf meyarı kimi dəyərləndirilərək həm də ədəbi-bədii dil ifadəsilə öz əhəmiyyətini ehtiva etmişdir. 2020-ci ilin noyabrında qazanılan Böyük Qələbə bütün sahələrin sıçrayışla inkişafı və tərəqqisinə imkan verdiyi kimi, ana dilimizin də inkişafgı və zənginləşməsi üçün böyük hadisə olaraq yadda qaldı. Akademik Nizami Cəfərov [10] və dosent Ramiz Qasımovun da [11] tədqiqatlarında göstərdikləri kimi, Böyük Zəfər hadisəsi, xüsusilə mahir diplomat, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər nitqi ana dilinin bir çox laylarının fəal inkişafına təsir göstərərək leksik, leksik-qrammatik, üslubi və s. baxımından yeni nümunələrin ortaya çıxması və onların əsasında yeni üslubi layların aktivləşməsinə imkanlar açdı. Zəfər epoxası olaraq qiymətləndirilən bu mərhələdə meydana gələn bədii nümunələrdə dilin zəfər məzmunu ehtiva edən məna çalarlarına malik çoxsaylı nümunələri meydana gəlməklə ədəbi-bədii dilin zənginləməsinə imkan açdı. Bu isə özlüyündə təfəkkür yenilənməsi hadisəsi olaraq qeyd edilməlidir. Çünki artıq dilçilik elmində qəti şəkildə təsdiq edildiyi kimi, dil təfəkkürdür, şüurdur. Dildə baş verən ciddi üslubi dəyişikliklər həm də təfəkkür, şüur dəyişikliklərinin təzahürüdür. Böyük Qələbəyə qədər Azərbaycan xalqının təfəkkür hadisəsi olaraq ana dilində daha çox kədər, həsrət, üzüntü, peşmanlıq məzmunu ifadə edən leksik-semantik laylar fəsal işləklik qazanmış, bədii dildə dərin bir depressiya hökm sürərək onun təzahürünü ehtiva edən nümunələr ortada olmuşdur. Lakin 2020-ci ilin noyabrında qazanılan Böyük Zəfər hadisəsi artıq şüurda, təfəkkürdə ciddi və müsbət, pozitiv dəyişikliklərlə təzahür edərək həm leksik-semantikŞ həm üslubi dəyşikliklərlə müşaiyət olundu. Bu dövrdə yaranan ədəbiyyat da məzmun-məna etibarilə Zəfər ədəbiyyatı adlandırılması da olduqca həqiqətəuyğundur.

Artıq qeyd etdiyimiz kimi, 2020-ci ilin Zəfərinə qədər Azərbayxacn ictimai düşüncəsində bir bədbinlik, kədər və üzüntü hökm sürürdü ki, bütün bu psixoloji keyfiyyətlər o dövrün formalaşmış ədəbiyyatında istifadə edilən bədbin notlu əsər, leksik-semantik vahidlər və üslubi funksioanlığında özünü təzahür etdirmişdir. Əldə edilən möhtəşəm Zəfər isə bütün bu bədbinlik və kədərin yerinə bolca sevinc gətirərək pozitiv duyğularla, bu duyğuları ifadə edən müxtəlif laylardakı üslubi funksionallıqlarla müşaiyət olundu. Bu dövrdə yaranan ədəbiyyatda zəfər ritorikası hökm sürdüyü kimi özünəməxsus məcazlar, ifdaə nümunələri bu pozitiv duyğuları əks etdirməyə yönəlik fəallıq göstərmişdir. Zəfər dönəəmi olaraq xarakterizə olunan bu mərhələdə ədəbi dildə işlənən sözlər pozitiv çalarları ifadə etməyə yönəldiyi kimi, bir sıra yeni ifadələr də yaranmaqla zəfər düşüncəsi və duyğularını da əks etdirməyə səfərbər olmuşdur. Müzəffər Ali Baş Komandan ifadəsi ədəbi dildə yeni yaranan ifadə olmaqla ərabər həm də Cənab Prezidentin həmin dövrdəki nütqində mövcud olan üslubi vahidlər sirayət edərək kütlə və bədii dilin yeni üslubi funksioanllıq qazanmasına təsir etmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq", "Salam, Şuşa!", "Əziz Şuşa, sən azadsan!", "Qarabağ Azərbaycandır və nida", "Zəfər yolu" və s. diplomatik-siyasi üslub daşıyan nümunələri bədii dilə sirayət edərək zəfər və qələbə ritorikasını ədəbiyyata, ədəbi düşüncəyə daşımaqla həm də bu üslubi model və ritorikanın kütləvi fəallıq qazanmasına vəsilə olmuşdur. Hətta bədii dildə bu üslubi modellər eynən işlənməklə həm əsər adları, həm də kitab adları kimi işləklik qazanmış, zəfər düşüncəsini əks etdirmişdir.

### *Naxçıvan ədiblərinin əsərlərində Qələbə ritorikası və bədii dil məsələsi*

Böyük Qələbədən sonra Qarabağa gedən yolun yenidən qurularaq Zəfər yolu adlanması münasibətilə artıq bədi dil faktları da meydana çıxmaqla fəallıq qazanır. Naxçıvan ədəbi mühitinin nümayəndəsi Asim Yadigarın "Zəfər yolu" poeması da məhz həmin diplomatik üslubi modelə bədii parodiya olaraq meydana gəlmiş ən sanballı nümunələrdən biri kimi qiymət qazanır. Qeyd etdiyimiz kimi, bu mərhələnin ədəbi nümunələrinə qələbə ritorikası hakimdir. əsərlər ümümi fon etibarilə diqtə pafosunu özündə ehtiva edir. Qalibiyyət ruhunu, qalib tərəfin özünəinamını və qalibiyyətdən məmnunluq duyğularını əks etdirir:

Soldurub baharını, gətirdik sərt qışını,
Axıdıb bu yerlərdə düşmənin göz yaşını,
Dəmir yumruqla əzdik onun murdar başını.
Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur! [14]

Misraların ondördlük hecada yeddilik təqtidə verilməsi qalibiyyət duyğuları və qələbə ritorikasını əks etdirmək üçün mükəmməl rol oynayır. Bəndin üslubi leksikasına diqqət verdikdə qələbə məzmunu ifadə edən sözlərin istifadə üstünlüyü əsərin ümumi pafosuna qaliblik və özünəinamın ifadəsini vermişdir. Son misrada "qeyrət, cəsarət, hünər" kimi güc və qüdrət məzmunu ifadə edən sinonim sözlərin işlənməsi qaliblik ritorikasını ifadə üçün uyğun üslubi leksik mənbə olaraq diqqəti cəlb edir. Burada işlədilən "dəmir yumruq" ifadəsi təkcə 2020-ci il Vətən müharibəsi qələbəsini gətirən "Dəmir yumruq" əks-hücum əməliyyatını ifadə etmək üçün deyil, bizim fikrimizcə, daha çox metanimiya olaraq xalqın birlik və gəmrəyliyinin metaforik ifadəsi olaraq işlənmişdir. Çünki cümlələrin birinci şəxsin cəmində işlənməsi də məhz həmin birlik və həmrəyliyi ifadə etmək üçündür. Bəzən isə "dəmir yumruq" ifadəsi bir qədər xəfifləyərək "Azərbaycan ordusu", "Azərbaycan dövlətinin gücü" mənalarına işarə edir. Alməmməd Eldaroğlunun "Onun polad biləyi, Sənin dəmir yumruğun" [3, s.18] və yaxud "Yerindədir dəmir yumruq, Arxamdır, dayağımdır" [3, s.19] kimi işlənmiş misralarda "dəmir yumruq" semantiuk baxımından bir qədər daralaraq "Azərbaycan ordusu" mənasını daşımışdır.

Zəfər ritorikasını ifadə edən və daha şox fəallıq qazanmış sintaktik modellərdən "Qarabağ Azərbaycandır!", "Salam, Şuşa!", "Əziz Şuşa, sən azadsan!" kimi konstruksiyalardır. Bu sintaktik modellər işğal edilmiş ərazilər və ona oxşar olaraq müəyən bir ərazinin Azərbaycanın suveren və hüquqi ərazilərinə daxil olduğu və azad olması mənasını ifadə edir. Ramiz Babayevin 2021-ci ildə nəşr olunan kitabının adı məhz bu sintaktik konstruksiyadan istifadə edilməklə adlandırılmışdı: "Salam, Şuşa". Eyniadlı şeirində də misralarda başlıca fikir məhz bu sintaktik modellərdə əks olunmuşdur: Ruhuma, canıma, xoş gəldin, Şuşa [1, s.36]. Qeyd etməyi lzım bilirik ki, bu cümlələr Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadələri olaraq artıq dildə işləklik və kütləvilik qazanmış "azadlığı" və "suverenliyi" mənalandıran konstruksiyalardır. Bu sintaktik konstruksiyalar artıq dildə idiomatiklik qazanaraq kütləviləşmiş və ifadə tezliyi qazanmışdır. Bu mənada bədii ədəbiyyatda da şair və yazıçılar tərəfindən Zəfər məzmunu ifadə etmək üçün tez-tez istifadə edilməkdədir. Bəzən nümunələrdə istinad olaraq sintaktik modellər olduğu kimi, bəzən də parodiya edilərək, müəyyən dəyişikliklərlə istifadə edilir. Məsələn, Alməmməd Eldaroğlunun "Dağlar qartalı" poemasının son bölümündə məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti poetik şəklə salınaraq əsgərlərin dilindən təqdim edilərkən ilk cümlə olduğu kimi verilmişdir:

Salam, əziz Şuşa, biz qayıtmışıq [3, s.114].

Artiq qeyd etdiyimiz kimi, zəfər idiomuna çevrilən bu ifadə bir çox nümunələrdə işlədilərək qələbə ritorikasının bədii əksinə çevrilmişdir. Prezident İlham Əliyevin Şuşanın azad olunmasından sonra xalqa müraciətində deyilmiş bu fikir kütləviləşərək zəfər idiomuna çevrilmişdir. Buna görə də bir çox bədii nümunələrdə bu ifadə qələbə ritorikasının idiomu kimi səslənməkdədir. Şair Hüseyn Bağıroğlunun "Salam, əziz Şuşa" başlıqlı şeirində də bu idiomatikləşmiş nümunə özünəməxsus poetik formada işlədilməkdədir:

Sənsən bizim ruhumuzun məskəni,
Yad əllərdə qoyardıqmı biz səni?!
İti qovan kimi qovduq düşməni,
Salam, əziz Şuşa, biz qayıtmışıq [2, s.21].

Bu nümunədə "iti qovan kimi qovduq düşməni" ifadəsi də Prezident İlham Əliyevin idiomatikləşmiş fikirlərindəndir ki, kütləvilik qazanaraq satirik planda istifadə edilməkdədir. Şairin poetik nümunələri olan "Sən indi azadsan azad quş kimi" [2, s.22], "Zəfər görünməyib bu zəfər kimi" [2, s.22] poetik modelləri də zəfər ritorikasını təcəssüm etdirən qiymətli nümunələr kimi diqqəti cəlb edir.

Zəfər pafosunu ifadə etmək baxımından bədii nümunələrdə "Müzəffər Ordu", "Müzəffər Komandan", "qalib xalq", "Müzəffər dövlət" və s. kimi leksik imkanlardan da üslubi olaraq fəal istifadə edilmişdir. A.Eldaroğlunun "Zəfər yürüşü yumruq" adlı şeirində bu vahidləri bariz görmək mümkündür:

Sən qələbə-qələbə qalib getdin irəli,
Titrətdikcə göyləri, titrətdikcə yerləri.
Yazdın müəzəffər marşı, Azərbaycan əsgəri.
Azərbaycan bayrağı, səfər yürüşü yumruq,
Gələcək zəfərlərin zəfər yürüşü yumruq! [4, s.35].
Heydər oğlu sərkərdəmiz,
Müjdəmizdi zəfərimiz.
Gözün aydın, Azırbaycan,
Mübarəkdir qələbəmiz!
...Qarabağda dalğalanır
Üçrəngli al bayrağımız! [4, s.35]

Əlbəttə, cümlənin qrammatik cəhətdən əlaqələnmiş leksik vahidlər əsasında qurulması mexanizminə uyğun olaraq nümunədə də bədii fikrin qələbə pafosunu poetik ifadə etmək baxımından qələbə və zəfər məzmunu ifadə edən sözlərdən üslubi istifadə edilməsi nümunəsi ortadadır. Nümunədə zəfərin qətiyyəti və qələbənin tam geniş müstəvidə əks etdirilməsi baxımından üç dəfə "qələbə" məzmunlu, üç dəfə "zəfər" köklü sözlərdən istifadə edilmişdir. Həm də cümlənin qrammatik əlaqələnməsi və quruluşunda təsdiq məzmunu ifadə edən qrammatik vahidlərdən istifadə edilmişdir. Fikrimizcə, əgər cümlə tərtiblərində inkarlıq məzmunu ehtiva edən vahidlərdən istifadə edilərdisə, müəyyən mənada, şübhə, inamsızlıq kimi məna keyfiyyətinə yer verilə bilərdi. Bundan başqa əsərdə həm də heca sayının seçimi ümumilikdə nümunəyə zəfər marşı təəssüratını qazandırmışdır.

Lakin zəfər pafosu və ritorikasını ifadə etmək baxımından Mahirə Nağıqızının bədii nümunələrində daha mükəmməl ifadə örnəkləri ortaya qoyulmuşdur. Bu nümunələrdə Ali Baş Komandanın zəfər bəxş edən müdrikliyi və qətiyyəti, əsgərlərin qələbə gətirən rəşadətli döyüşü və dillərə dastan qəhrəmanlığı özünəxas poetik obrazlılıqla təsvir və təqdim edilmişdir. Bütün bunları diqqətə alan dosent Ramiz Qasımov öz təhlillərinə dayanaraq şairənin bədii söz ustalığını qiymətləndirərək yazmışdır: *"Şairə böyük sənətkarlıq məharətilə obrazlı ifadələrini ən orijinal, özünəməxsus ifadə tapıntıları ilə, söz oyunları ilə əks etdirməyə müvəffəq olub. Burada da şairə bir tərəfdən misralar arasında üslubi fiqur olaraq bədii təzaddan istifadə etmiş [bitər-bitmədi], bədii təzadın qarşılaşdırma yolu ilə nəzər diqqəti cəlb etmə məharətini göstərmiş, həm də bədii təzadın ifadəlilik imkanları daxilində vətənə məhəbbətin hüdudsuzluğunu təqdim etməyə nail olmuşdur. Eləcə də "Arzuları göyərməyən kəslərin, Torpaq üstdə sinədaşı göyərər" misrasında şairə məharətlə "göyərməyən – göyərər" bədii təzadını yaratmaqla fikrin olduqca dərin və rəngin bir ifadəsini ortaya qoymuşdur. Ümumiyyətlə, istedadlı şairə öz yaradıcılığında bir sıra orijinal bədii sual, təzad, təkrir, mübaliğə, litota və b. kimi üslubi fiqurlardan istifadə etmişdir*" [5, s.55]. Bu xüusda istedadlı şairə Mahirə Nağıqızının poetik nümunələrində maraqlı və orijinal mübaliğə, litota, bənzətmə [təşbeh] və s. məcazlar və üslubi fiqurlar yaradılaraq istifadə edilmişdir.

Hər biri dikəldi, durdu dağ kimi,
Düşmən qabağına verdilər sinə.

Gecənin bağrından bir mizraq kimi
Onlar sancıldılar düşmən köksünə [7, s.53].

Bu nümunədə istedadlı şairə "mizraq kimi sancıldılar" təşbehini çox orijinnallıqla yaratmış və başlıca fikrini – Azərbaycan milli ordusunun əsgərlərinin hünərvərliyini, qəhrəmanlığı və qorxmazlığını bədii dilin gücü ilə təsirli şəkildə ifadə etməyə nail olmuşdur.

Ərən oğulları bir yolu seçdi,
Tutub dırnağıyla sal qayaları [7, s.53] –

Nümunəsilə istedadlı şairə mübaliğinin orijinal örnəyini ortaya qoymuş, mübarizə və əzmin qırılmazlığını bütün gücü və təsirliliyi ilə təqdim etməyə nail olmuşdur.

Şairə M.Nağıqızının:
Bir güllə gücünə sakit olanlar,
Bir addım səsinə diksinə bilər [7, s.] –

poetik nümunəsi çox maraqlıdır. Belə ki, istedadlı sənətkar bir poetik nümunə içərisində eyni ifadənin imkanları daxilində müxtəlif məcaz və üslubi fiqurlar yaratmağa nail ola bilmişdir. Nümunədəki "bir güllə gücünə sakit olanlar" üslubi fiqur olaraq litota – kiçiltmə olaraq istifadə edilmişdirsə, "güllə səsi" ifadəsi özü "güllə ilə öldürülmə, vurulma" sözünün yumşaldılmış, terminoloji olaraq deyilsə, ameliorativləşmiş və evfemizm forması, yəni metafor, "sakit olanlar" isə "ölmək" sözünün poetik şəkidə yumşaldılmış – evfemizm qarşılığı – metafor olaraq işlədilmişdir. Eynilə "bir addım səsinə diksinə bilər" ifadəsində isə semantik hadisə olaraq disfemizm hadisəsi baş verərək "narahat olma"nın daha sərt ifadə forması olaraq "diksinmək" kimi işlədilmiş, obrazlaşmış, sözün poetik funksiyası olaraq olaraq isə hiperbola – şişirtmə olaraq istifadə edilmişdir. Bu nümunədə "bir addım səsinə diksinə bilər" ifadəsi "ölənlər ayıla bilər" mənası bir az sərtləşmiş – disfemistik formada ifadə etmək bacarığından ortaya qoyulmuşdur.

Dilimizdə Zəfər ritorikası həm də düşməni ələ salan, onun qəddarlığı və işöalçılığına qarşılıq onu aşağılayan söz və ifadələrdən istifadə edilmişdir. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti 44 günlük müharibə dövründə vaxtilə sərxoşluq edib, qudurqanlıqla Şuşada rəqs edən, xalqımıza qarşı mənfur düşmənçilik hərəkətlərini davam etdirən Ermənistan Prezidenti Nikol Paşinyanı ələ salan, onun özündən razıəlığı və qudurğanlığına cavab olaraq issələdilən "Noldu Paşinyan?, Cəbrayıla yol çəkirdin?!, Yoxdu status. Gorbagor oldu status" və digər ifadələri də satirikləşmiş formada və parodiyaları ilə ədəbi əsərlərdə şairlər tərəfindən istifadə edilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, "iti qovantək qovduq" ifadəsi məhz Azərbaycan Prezidentinə aid olan ifadə idi ki, ədəbi əsərlərdə işləklik qazanmış Zəfər ritorikasına xidmət edən obrazlaşmış nümunələrdən olmuşdur. Şair Əbülfəz Ülvinin yaradıcılığından olan ""Dəmir yumruq" başlıqlı şeir, görünür ki, Azərbaycan Respublikası Prezidentinin 44 günlük Vətən müharibəsi dönəmində xalq-dövlət birliyini ifadə etdiyi və tez-tez işlətdiyi əzbərə çevrilmiş "dəmir yumruq" ifadəsinə yazılıb. Şairin "Sonda olmayıb" və "Sənin payın" şeirləri də bu məzmunda olması ilə fərqlənib özünəməxsusluq kəsb edir. Hər iki şeir uşaq və insan qatili Ermənistan Prezidenti Paşinyana müraciətlə yazılmış, 44 günlük müharibə dövründə Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyevin dillərə keçmiş ifadə və ibarələrini izləməklə ərsəyə gəlmişdir" [9, s.5]. O cümlədən ""Sənin payın" adlandırılan şeirdə isə Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə xalqa xitabının üslubu üzərində qurularaq əzbərlərə çevrilmiş müxtəlif yumoristik-sarkastik ifadələrdən istifadə edilməklə yazılıb. Şeirdə gülməli vəziyyətə düşmüş Ermənistan Prezidenti Paşinyanın simasında bütün daşnaq xislətli, saxtakar erməni millət ələ salınıb, gülüş hədəfinə çevrilib. Cənab Prezidentin "Bəs Cəbrayıla yol çəkirdin, noldu, Paşinyan?!" sarkastik xitabı" [9, s.6] uğurla istifadə edilmişdir:

Nə oldu Cəbrayıla bəs yol çəkirdin?
Sən necə kişisən, niyə əkildin? [9, s.10].

***Nəticə***

Beləliklə: bu örnəklərin hər biri Azərbaycan ədəbi dilinin, xüsusilə onun məcazi məna layının zənginləşməsinə imkan yaradan örnəklər olaraq qiymətləndirilə bilər;

- bu nümunələrin yaranması patetik ifadə imkanları baxımından zəngin olan Azərbaycan dilinin söz və məna yaradıcılığında oynadığı rolu aydın nümayiş etdirir;
- Naxçıvan ədiblərinin əsərlərində istifadə hüquq qazanmış müxtəlif məcazlar və üslubi fiqur nümunələri ədəbi dili zənginləşdirmək baxımından konkret örnək ola bilərlər;
- Bədii əsərlərdən müəyyənləşmiş məcaz və üslubi fiqur örnəkləri Azərbaycan ədəbi dilinin məcazi məna layının zəinginləşməsi, patetik fikir ifadəliliyi və modelləri baxımından əhəmiyyətli mənbə ola bilər.

## ƏDƏBİYYAT

1. Babayev R. Salam, Şuşa. Naxçıvan: Əcəmi, 2021, 96 s.
2. Bağıroğlu H. Nə yaxşı göydədi hələ göy üzü. Bakı: ReadENG nəşriyyatı, 2021, 172 s.,
3. Eldaroğlu A. Zəfər Günəşi. Naxçıvan: Əcəmi, 136 s.
4. Eldaroğlu A. Öpəndə torpağı bayraq kölgəsi. Naxçıvan: Əcəmi, 2025,
5. Qasımov R. Şairə Mahirə Nağıqızının bədii söz ustalığı: üslubi poetik fiqurlar və məcazlar / "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda keçirilmiş III respublika elmi konfransının materialları. Naxçıvan: "Qeyrət" nəşriyyatı, 2023, s.54-59.
6. Qasımov R., İsmayıl Z. Sözün daş nağılı və ağırlığı. "İki sahil" qəz., 2023-cü il, 4 noyabr.
7. Nağıqızı M. Lövbər adam. Bakı: ADPU-nun nəşriyyatı, 2022, 255 s.
8. Nağıqızı M. Onun daş nağılı. Bakı: ADPU nəşriyyatı, 2020, 419 s.
9. Ülvi Ə. Mən səni içimdən qovmamışam ki. Bakı: Elm və təhsil, 2021, 184 s.
10. Cəfərov N. Vətən müharibəsi Azərbaycan dilinin yeni siyasi üslubunu – "Vətən müharibəsi üslubu", yaxud "Zəfər üslubu" yaratdı // URL: https://ataturk.az/2020/12/23/nizami-c%C9%99f%C9%99rov-v%C9%99t%C9%99n-muharib%C9%99si-az%C9%99rbaycan-dilinin-yeni-siyasi-uslubunu-v%C9%99t%C9%99n-muharib%C9%99si-uslubu-yaxud-z%C9%99f%C9%99r-us/.
11. Qasımov R. Mənim zəfər dilim // URL: https://gundelik.az/menim-zefer-dilim/
12. Qasımov R. Zəfər şairi // URL: https://edebiyyatqazeti.az/news/edebi-tenqid/12953-zefer-sairi.
13. Bir şəhid əynində köynəkdi vətən // URL: https://olaylar.az/news/edebiyyat/596055.
14. Yadigar A. Bu yol Zəfər yoludur // URL: https://edebiyyatqazeti.az/news/poeziya/7835-zefer-yolu.

***NDU-nun doktorantı**
***alinabizade1717@gmail.com***

**Lamiya GARDASHZADEH**

## VICTORY RHETORIC AND STYLE-ARTISTIC EXPRESSION OF THE SPIRIT OF VICTORY IN ARTISTIC LANGUAGE (BASED ON THE CREATIVITY OF NAKHCHIVAN POETS)

The article examines the poetics of victory in artistic works based on the materials of the Nakhchivan literary environment. It is shown that the Great Victory achieved in 2020 gave the Azerbaijani people deep feelings of joy and exultation. It is noted that in the Republic of Azerbaijan, which achieved victory in November 2020, literary figures expressed these feelings of victory in the language of artistic works with the most colorful, rich poetic methods and shades. Victory did not remain only a socio-political and military event, but also found its manifestation in language. The issue of reflecting the theme of victory in examples at the level of artistic language was investigated. The writers who brought this great event to literature with great enthusiasm have revealed unique poetic features and examples of victory in their works of art, especially in poetry. Victory, which has become the main theme in the creativity of Nakhchivan writers, has served to enrich the mother tongue and improve the artistic language technique by manifesting itself in unique language and

style forms. Thanks to the Great Victory, words such as “victory, victory” that had lost their function in the Azerbaijani language have become more active, and at the same time, new words, expressions and models have emerged and gained functionality in the direction of liberating the occupied Azerbaijani territories and ensuring the territorial integrity and sovereignty of Azerbaijan. In accordance with the rhetoric in President Ilham Aliyev’s speech during the war and Victory, rhetoric also prevailed in the artistic examples, and the spirit of victory was reflected in the literary literature by both repeating the stylistic expressions used by the President and creating new forms of them.

**Keywords:** Victory, rhetoric of victory, artistic embodiment, stylistic form.

**Ламия Гардашзаде**

## РИТОРИКА ПОБЕДЫ И СТИЛЕВО-ХУДОЖЕСТВЕННОЕ ВЫРАЖЕНИЕ ДУХА ПОБЕДЫ В ХУДОЖЕСТВЕННОМ ЯЗЫКЕ (НА МАТЕРИАЛЕ ТВОРЧЕСТВА ПОЭТОВ НАХЧЫВАНА)

В статье рассматривается поэтика победы в художественных произведениях на материале литературной среды Нахчывана. Показано, что Великая Победа, одержанная в 2020 году, подарила азербайджанскому народу глубокие чувства радости и ликования. Отмечается, что в Азербайджанской Республике, одержавшей победу в ноябре 2020 года, литературные деятели выразили эти чувства победы в языке художественных произведений самыми яркими, богатыми поэтическими средствами и оттенками. Победа не осталась только общественно-политическим и военным событием, но и нашла свое воплощение в языке. Исследован вопрос отражения темы победы в примерах на уровне художественного языка. Писатели, с большим энтузиазмом воплотившие это великое событие в литературе, раскрыли уникальные поэтические особенности и примеры победы в своих произведениях, особенно в поэзии. Победа, ставшая главной темой в творчестве нахчыванских писателей, способствовала обогащению родного языка и совершенствованию художественной языковой техники, проявляясь в уникальных языковых и стилевых формах. Благодаря Великой Победе такие слова, как «победа», «победа», утратившие свою функциональность в азербайджанском языке, стали более активными, и одновременно появились новые слова, выражения и модели, обретшие функциональность в направлении освобождения оккупированных азербайджанских территорий и обеспечения территориальной целостности и суверенитета Азербайджана. В соответствии с риторикой, прозвучавшей в выступлениях президента Ильхама Алиева в годы войны и Победы, риторика преобладала и в художественных образцах, а дух победы отражался в литературном произведении как посредством повторения стилистических выражений, использованных президентом, так и посредством создания новых их форм.

**Ключевые слова:** Победа, риторика победы, художественное воплощение, стилистическая форма.

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 09.10.2025**
**Son daxilolma tarixi:13.11.2025**